*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 173-178* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.173*

# Ornamentimizin semiotik açılışı və fərqləndirici xüsusiyyətləri

**Fəridə Quliyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: feridequliyeva.66@mail.ru

**Annotasiya**. Qədim dünya dövründən orta əsrlərin başlanğıcına qədər tarixən Azərbaycan adı ilə məlum olan ərazidə bu ölkəyə xas naxış elementləri və ornament bir sıra faktorların (coğrafi, etnoloji, sosial-psixoloji, siyasi-ideoloji, dini…) təsiri altında tədricən məna və forma etibarı ilə konkretləşməyə başlayaraq "qaynayıb-qarışma" ilə səciyyələnən təşəkkül dövrünü keçmişdir.
Yaranmasında mürəkkəb tarixi yol keçmiş milli ornamental quruluşlarda tərkib hissələri bir-biri ilə vəhdətə gətirən uzlaşdırıcı qanun, prinsip və ideallar tədqiqatlarda analitik prizmadan keçirilməlidir. İndiyədək aparılmış belə təhlillərdən məlum olur ki, *estetik zövq* fonunda ustalıqla təqdim edilən (ümumi quruluşun tərkibində) sistemləşdirilmiş simvolların məcmusu tamaşaçı qarşısında konkret məzmunlu semantik mənzərə yaradır.
**Açar sözlər**: ornament, semantika, semiotika, milli, ənənəvi.

**Məqalə tarixçəsi**: göndərilib – 28.02.2025; qəbul edilib – 17.03.2025

# Distinctive characteristics of traditionally Azerbaijani ornament and it's semiotic disclosure

**Farida Guliyeva**
Doctor of Philosophyin Art Studies
Institute of Architecture and Art of ANAS
E-mail: feridequliyeva.66@mail.ru

**Abstract.** From the timesof the Ancient World until the beginnin gof the Middle Ages, the elements of pattern and ornament characteristic of this countryin the territory histori callyknownas Azerbaijan, under the influece of a number of factors (geographical, ethnological, socio-psychological, political-ideological, religious...) went through a period of formation characterized by "fusion and mixing", beginning to be concretized in meaning and form.
The coordinating law, as well as the principles and ideals that unite the components in national ornamental structures that have gone through a complex historical path in their creation, must be passed through the analytical prism of research.
From the analysis carried out to date, it is known that a set of systematized symbols, skillfully presented (as part of the overall structure) against the background of aesthetic taste, creates before the viewer a semantic picture with specific content.
**Keywords**: ornament, semantics, semiotics, national, traditional.

**Article history:** received – 28.02.2025; accepted – 17.03.2025

## Giriş / *Introduction*

Bəşərin çoxminillik tarixinin axarında özünə dünya xalqları, xüsusən də Qərbi və Mərkəzi Asiya ornamental təsvirləri sırasında maraqlı yer tuta bilmiş, zamanımıza gəlib çatmış Azərbaycan ornamenti məhəlli və milli çərçivədə orijinallıq qazanaraq artıq mədəni-etnik mənsubiyyət identifikatoru rolunu oynaya bilən əlavə amilə çevrilmişdir.

O, qədimdən bəri inkişaf etməyə başlamış, ilk baxışdan heç də gözə çarpmayan, lakin çox sabit və qarşısıalınmaz, tədrici bir hərəkət prosesinin gedişində daima dəyişərək təkmilləşmiş, zahiri sadəliyini itirməyərək mənaca mürəkkəbləşmiş, estetik baxımdan gözəlləşmişdir.

## Əsas hissə / *Main Part*

Azərbaycan milli ornamentləri quruluşca sadə, lakin mənaca dərin simvollarla zəngindir. Ənənəvi ornamentlərin təşəkkülündə iştirak edən əsas simvolların istiqaməti səma cisimləri, yer üzündəki müxtəlifliklər və nəhayət fərqli siniflərə bölünən canlılardır.

Azərbaycan ənənəvi ornamenti daxilində simvolları və köməkçi elementləri qarşılıqlı surətdə əlaqələndirən səciyyəvi struktur növü əksəriyyət etibarı ilə *simmetrik həndəsi fiqurlar*dır (şək.1). Hərçənd ki, müəyyən məzmunlu özəl ifadələr üçün tərkib komponentlərin ornamentin daxilində yerləşdirilməsində *asimmetrik* (hətta *stoxastik*) sxemlər də işlənir (şək.2) [3, s.291]. Burada qeyd etmək lazımdır ki, bu iki bir-birisinə zidd olan vəziyyətlərin arasında daha bir orta mövqeli həndəsi quruluş da var: *disimmetriya* (bu kamil simmetriyadan yayınan, lakin qabarıq asimmetriya ilə müqayisədə daha simmetrik görünən quruluşdur) (şək.3). [7; 9]

Azərbaycan milli mentaliteti və məhəlli psixologiyası, ənənəvi dünyagörüşü və xalqımız üçün səciyyəvi olan məntiq – ornamentlərdə öz təzahürünü xeyrin şər üzərindəki qələbəsində tapır.

Yaranmasında mürəkkəb tarixi yol keçmiş milli ornamental quruluşlarda tərkib hissələri bir-biri ilə vəhdətə gətirən uzlaşdırıcı qanun, prinsip və ideallar tədqiqatlarımızda analitik prizmadan keçirilməkdədir. İndiyədək aparılmış belə təhlillərdən məlum olur ki, *estetik zövq* fonunda ustalıqla təqdim edilən (ümumi quruluşun tərkibində) sistemləşdirilmiş simvolların məcmusu tamaşaçı qarşısında konkret məzmunlu semantik mənzərə yaradır.

Milli ornamentimizə nəzər saldıqca bəzi semiotik qanunauyğunluqları müşahidə edə bilərik: məsələn, xalçalarımızdakı qızılgülləri cənnət əlaməti və sevgi rəmzi kimi görə bilərik. Diqqət çəkən məqamlardan biri də rombvarı naxış və ortasında yer alan dörd ünsür təsviridir. Bu süjetli motivdəki dörd rəqəmi dünyanın dörd üfüqi cəhətinin simvolu kimi anlaşılır, bəzi mənbələrə görə dördlük – təbiətin dörd ünsürünü (havanı, suyu, torpağı və odu) simvolizə edir. Səkkizguşəli ulduz – çox güman ki, cənnətin 8 qapısına işarədir. Günəş şüaları yerə təxminən səkkiz dəqiqəyə gəlib çatır və bu baxımdan səkkiz rəqəmi kosmik tarazlığı da ifadə etməkdədir.

Müxtəlif formalı üçbucaq, qarmaq, həyat ağacı, heyvan motivləri (quş, bülbül, tovuzquşu, əjdaha, qoç, dəvə), buta təsvirləri ornamental təsvirlərimizə xasdır:

– Üçbucaq bütün həndəsi fiqurların arasında ən mükəmməlidir, tək və cüt ədədlərdən sonra bilavasitə çoxluğu və ardınca da sonsuzluğu simvollaşdırır. Bundan başqa, üçbucaq möhkəmlik, dayanıqlıq, dəyişməzlik kimi keyfiyyətləri özündə tərənnüm edir. Digər nəzəriyyəyə görə Yaradan Tanrı, insan və kainat üçlüyü bir üçbucağın küncləri kimi möhkəm əlaqəyə malikdir. Zirvə nöqtəsi yuxarı baxan üçbucaq göyün, aşağı baxan üçbucaq isə yerin simvolu sayılır. Onların iç-içə keçməsi isə səmavi möcüzələrin yer üzündə inikas tapmasının ifadəsidir; [5]

– Qarmaq təsviri tək şəkildə tilsim mənasında istifadə edilir, digər simvollarla birlikdə isə daha geniş məna əldə edir: buynuzlarla birlikdə cəsarət, mərdlik, güc rəmzini bildirir. Qarmaq ornamenti çoxmənalı şəkildə təfsir edildiyi həndəsi formalı - düzbucaqlı, romb, üçbucaq və s. kimi ornamental elementlərlə bağlıdır; [2]

– "Həyat ağacı" təsviri xalçalarda müşahidə edilən simvollardan biridir. Ağac və bitki mənşəli rəmzlər mədəniyyətimizin mühüm anlayışlarıdır. Dədə Qorqud dastanında rast gəldiyimiz "Qaba ağac" ifadəsi şübhəsiz ki, oğuz-qıpçaq xalqlarının əsatirində olan "Həyat ağacı" ilə bağlıdır. Qaba ağacın kökləri sanki yeraltı dünyadan və keçmişdən, budaqları isə səmadan və gələcəkdən xəbər verir;

– Heyvan motivlərinin müxtəlif semantik mənaları var. Məsələn, Avesta təsəvvürlərinə görə, buğa məhsuldarlıq ilahəsinin rəmzi idi, aslanın taybuynuz ilə çarpışması isə işığın və qaranlığın, yaşam və ölümün, Ahura Mazda və Anqra Manyunun mübarizəsini nəzərdə tuturdu. Heyvanat süjetlərinin simvolik mənaları ənənəvi olaraq İslam epoxasında da qorunub saxlanırdı. Təbriz məktəbi xalçalarında heyvanat mövzusu daha populyardır ki, bu da ilk olaraq onun Azərbaycan incəsənəti üçün ənənəviliyi və dilinin universallığı – hər kəsə aydın olması ilə izah edilir; [2]

– Azərbaycan ornament sənətinin çox yayılmış bəzək elementlərindən biri də sirlərlə dolu ecazkar butadır. Dini əsatirə görə Uca Yaradan özünə elçi seçdiyi Hz.Musa Kəlimullahla danışarkən buta adlanan kol bitkisini alovlandırıb Öz Nidasını bu bitkinin tumurcuqlarının saçdıqları şölə ilə həmahəng səsləndirmişdi – bugün bizimlə doğmalaşmış bu qocaman zərif ornamentimiz həmin titrək atəş dillərinin formasını eynən təkrarlayır. Lakin onun hələ Zərdüştülik inancı dövründən qalması da istisna edilmir. Həm çiçək ləçəyinə, həm sərv ağacının yaşıl çətirinə, həm atəş dilinə, həm ana bətnindəki canlı rüşeyminə bənzərliyi olan, elmi ornamentşünaslıqda bir çox adlarla /paisley, carrey, kerii, ambi, … / məşhur olan bu bəzək elementi həyatın axıcılığının, işığın, istiliyin, İlahi əbədiliyin simvoludur [8].

Bu cür sistemləri ayrı-ayrılıqda müşahidə edərək diqqətlə nəzərdən keçirib bənzərlik nümayiş etdirən şablonlar uyğunlaşdırılıb ümumiləşdirilərsə, bu ümumiləşdirilmiş sırada müəllif tərəfindən gizlədilmiş sistem qanunauyğunluğunu aşkarlamaq mümkün olur. Nəticədə bir çox maraqlı faktlar üzə çıxır.

Belə ki, burada ilk olaraq gözə çarpan simvol və əlavə elementlərin – zahiri cəhətdən yuvarlaq "*konsentrik*", mənaca isə seyrçi fikrini hədəfdə olan ideya və prinsiplər üzərində təmərküzləşdirən *ideosentrik* quruluşda – asılılıq münasibətində olmasıdır. Məhz maddi mədəniyyət əsərinə aid olaraq "ideosentrik" ifadəsini işlədərkən bunu qeyd etməliyik: hər bir incəsənət əsəri, sözsüz ki, müəyyən ideya daşıyıcısıdır; Azərbaycan mədəniyyəti və incəsənətində iştirak edən ornament və onun əsasında yaradılmış mürəkkəb kompozisiyalar nəinki bəlli bir ideya (və ya birdən artıq ideyanın) daşıyıcısıdır, hətta bunların təşəkkülə gəlməsi prosesi vahid bir ideyanın qabarıq və aydın şəkildə izharı və tərənnümü ətrafında tamamlanır. Bu məcazi yerləşim əsərə möhtəşəmlik və mənəvi əzəmət bəxş edir. Estetik zövq duyğusu ilə zəngin olan sərrast qiymətləndirici göz qısa zamanda bu kamil gözəlliyi sezmiş olur.

İlk baxışdan həndəsədən götürülmüş "konsentrik" (yəni "eynimərkəzli") terminin sırf çevrələrə aid olduğunu (şək. 4) nəzərə aldıqda bizim məhz və yalnız dairəvi ornamentləri nəzərdə tutmağımız düşünülür. Lakin niyyətimiz təkcə bunları deyil, simmetriyası xəyali konsentrik çevrələr üzrə nizamlanmış bütün başqa ornamenrləri də bu qrupda birləşdirməkdir (şək.5; 6; 7).

Digər bir fərqləndirici xüsusiyyət – elementlərin vahid mərkəzli sistemin daxilində mütəqabil (qarşılıqlı) surətdə (sanki seyrçini düşündürmək üçün) birbaşa aşkar simmetrik deyil, bir qədər *mürəkkəb* (2-3 mərtəbəli) *abstrakt simmetriya* münasibətində (asılılığında) olmaqlarıdır. [6]

Deyə bilərik ki, qədim Azərbaycan ornamentinin özündə ehtiva etdiyi ecazkar, zövqverici mütənasiblik (dünya xalqları arasında əksərən yayılmış olan) sadə "*ədədi silsilə*" qanununa tabe edilən quruluşlarla müqayisədə daha çox "*həndəsi silsilə*" qanununa tabe edilmiş kompozisiya və ansambllara xasdır.

Daha aydın təsəvvür üçün əyani misallarla bəzi fərdi qanunauyğunluqları nəzərinizə təqdim edək:

Bənnanın müvafiq tapşırığa uyğun olaraq hər cərgəyə 2 ədəd daşı öncəkindən daha artıq sayda döşəməsi mənzərəsi (şək. 8 – *sol tərəfdə)*; canlı bakteriyanın münbit şəraitdə hər dəqiqədə ikiyə bölünərək bioloji artıma uğraması hadisəsinin qrafik təsviri (şək. 8 – *sağ tərəfdə).* Təqdim edilən rəsmlərdə A) - ədədi silsiləvi, B) isə - həndəsi silsiləvi qanunauyğunluqları ifadə edir.[4]

Qeyd edək ki, həndəsi silsilə qanunu ilə “idarə” olunan ornament və onun zəminində qurulan mürəkkəb kompozisiyalar ona gözü sataşan və yaxud ona tamaşa edən insanın şüurunda baş verən zehni mənimsəmə prosesində heyrətamiz sürətli bir axın və ildırımvari həzz verici burulğan yaradır.

## Nəticə / *Conclusion*

Milliləşmiş ənənəvi ornamentimizin dünya xalqlarının bir çoxunun ornamentlərindən seçdirən özəl xüsusiyyəti – onun bir neçə kökdən nəşət tapmasına istinadən kreativ inkişaf nəticəsində sinkretik şəkildə çulğalaşaraq özünəməxsus mürəkkəb xarakter daşımasıdır. Regional təsirlərdən savayı tarix boyunca mövcud olmuş dini-fəlsəfi cərəyanların nəzəriyyələrinin təsiri altında xarakterik simvolika ərsəyə gəlmişdir.

## Ədəbiyyat / *References*


1. Azərbaycan etnik və milli kimliyi https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_etnik_v%C9%99_
2. Azərbaycan Xalçası Ensiklopediyası: I cild, Bakı: Mega print, 2015, 472 s.
3. Quliyeva Fəridə. Milli-ənənəvi ornamentin formalaşması və qavranılması: mürəkkəblik və sadəlik. // AMEA Filologiya və sənətşünaslıq, № 1, 2024, - s. 291-297.
4. Арифметическая и геометрическая прогрессии https://www.yaklass.ru/p/osnovnoj-gosudarstvennyj-ekzamen/matematika/oge-trenazher-7304039/zadachi-na-arifmeticheskuiu-i-geometricheskuiu-progressii-zadanie-14-7327746/re-adcc6f8d-ea50-4977-a30c-83bfba6bf764
5. Бауэр В., Дюмотц И., Головин С. Энциклопедия символов / Пер. с нем. Г.Гаева. М., Крон-пресс, 2000, 504 с.
6. Законы и правила построения орнаментальной композиции https://bstudy.net/890907/iskusstvo/zakony_pravila_postroeniya_ornamentalnoy_kompozitsii
7. Кязим-Заде Айдын Кязим. Симметрия, асимметрия и диссиметрия узоров, орнаментов азербайджанских ковров. https://cyberleninka.ru/article/n/simmetriya-asimmetriya-i-dissimetriya-uzorov-ornamentov-azeerbaydzhanskih-kovrov
8. Пейсли, "слеза Аллаха", турецкий боб или просто "огурец" https://ornament-i-stil.livejournal.com/33162.html
9. Симметрия, Диссимметрия, Асимметрия https://naukam.ucoz.ru/publ/tekhnicheskie/simmetrija_dissimmetrija_asimmetrija/2-1-0-71


## Отличительные характеристики традиционно Азербайджанского орнамента и его семиотическое раскрытие

**Фарида Гулиева**
Доктор философии по искусствоведению
Институт архитектуры и искусства НАНА
E-mail: feridequliyeva.66@mail.ru

**Резюме**. Со времен Древнего мира и до начала Средневековья элементы узора и орнамента, характерные для этой страны на территории, исторически известной, как Азербайджан, под влиянием ряда факторов (географических, этнологических, социально-психологических, политико-идеологических,

религиозных...) прошли период формирования, характеризующийся «сплавлением и смешением», начиная конкретизироваться по смыслу и форме.

Согласующий закон, а также принципы и идеалы, объединяющие компоненты в национальных орнаментальных сооружениях, прошедших сложный исторический путь в своем создании, должны быть пропущены через аналитическую призму исследования.

Из проведенного к настоящему времени такого анализа известно, что совокупность систематизированных символов, умело представленных (как часть общей структуры) на фоне эстетического вкуса, создает перед зрителем смысловую картину с конкретным содержанием.

**Ключевые слова**: орнамент, семантика, семиотика, национальный, традиционный.



Şək.1 Xovlu xalça, "Muğan",
Qarabağ, Azərbaycan. XIX əsr.



Şək.2 Xovsuz xalça, Zili, Bakı
(Abşeron), Azərbaycan.



Şək.3 Xovlu xalça, "Pirəbədil", Quba,
Azərbaycan. 1907

.




Şək.4 Həndəsədə konsentrik çevrələr



Şək.5 Konsentrik ornamenlər



Şək.6 Asiyanın köçəri maldarları



Şək.7 Naxçıvan. Möminə xatun üçün müştərək ornament türbəsinin fasad naxışları.




Şək.8 a) Ədədi silsilə nümunəsi b) Həndəsi silsiləsi




c) Riyazi qanunauyğunluqların müqayisəli qrafik təsviri (*qırmızı* - ədədi, *göy* – həndəsi silsilələr)